

“A.M.O” MMC

# “A.M.O” MMC-NİN 31.12.2025-Cİ İL TARİXƏ

# KONSOLİDASİYA EDİLMİŞ MALİYYƏ HESABATLARI VƏ MÜSTƏQİL AUDİTORUN HESABATI

## 31 DEKABR 2025-CÜ İL TARİXİNƏ BAŞA ÇATAN İL ÜZRƏ MALİYYƏ HESABATLARININ HAZIRLANMASI VƏ TƏSDİQLƏNMƏSİ İLƏ BAĞLI RƏHBƏRLİYİN MƏSULİYYƏTİNƏ DAİR HESABAT

Rəhbərlik 31 Dekabr 2025-ci il tarixdə bitən il üzrə öz hesabatını və audit olunmuş konsolidasiya edilmiş maliyyə hesabatlarını təqdim etməkdən məmnundur.

"A.M.O" Məhdud Məsuliyyətli Cəmiyyəti öz fəaliyyətini Azərbaycan Respublikasının Mülki Məcəlləsi, qüvvədə olan digər qanunvericilik aktları və bu nizamnamə əsasında həyata keçirir.

Dekabr 2025-ci il tarixə ümumi gəlir 1 566 362 AZN, il ərzində rentabellik səviyyəsi 20% və xalis gəlir 1 566 362.43 AZN olmuşdur. Rəhbərlik gələcək ilin nəticələri üçün nikbindir və Müəssisənin fəaliyyətini daha da təkmilləşdirmək üçün strateji planlara malikdir.

**Risklərin idarə olunması və Daxili Nəzarət Sistemi:**

Cəmiyyət dayanıqlı inkişaf və əlavə gəlirliliyə nail olmaq məqsədilə risklərin effektiv idarə olunmasına xüsusi önəm verir. Risklərin idarəetmə prosesi aşağıdakı mərhələləri əhatə edir: risklərin müəyyən edilməsi, qiymətləndirilməsi, hesabatların hazırlanması, risk limitlərinin müəyyənləşdirilməsi və nəzarət tədbirlərinin tətbiqi. Cəmiyyət üçün əsas risk kateqoriyalarına kredit, bazar, likvidlik və əməliyyat riskləri daxildir.

Rəhbərlik daxili nəzarət sistemlərinin mövcudluğu və səmərəliliyinə məsuliyyət daşıyır. İdarəetmə və informasiya sistemləri vasitəsilə risklər davamlı şəkildə təhlil olunur.

**Fəaliyyətin Fasiləsizliyi:**

"A.M.O" MMC fəaliyyətini fasiləsizlik prinsipi əsasında həyata keçirmək qabiliyyətinə malikdir və bu prinsip əsasında gələcəkdə də fəaliyyətini davam etdirəcəkdir.

**Balans Tarixindən Sonrakı Hadisələr:**

Rəhbərliyin rəyinə əsasən, maliyyə ili başa çatdıqdan sonra konsolidasiya edilmiş maliyyə hesabatlarının tərtib olunduğu tarixədək dövr ərzində Cəmiyyətin nəticələrinə əhəmiyyətli təsir göstərə biləcək qeyri-adi və ya mühüm bir hadisə baş verməmişdir.

**Kreditor Borclarının Ödənilməsi Siyasəti:**

Cəmiyyət təchizatçılarla əldə olunmuş razılaşmalara əsasən borcların ödənilməsi siyasətini həyata keçirir. Bu siyasətin əsas məqsədi razılaşdırılmış şərtlərə uyğun olaraq ödənişlərin vaxtında və nizamlı şəkildə həyata keçirilməsidir.

**Torpaq, Tikili və Avadanlıqlar:**

Torpaq, tikili və avadanlıqlarla bağlı əməliyyatlar konsolidasiya edilmiş maliyyə hesabatlarında uyğun şəkildə əks etdirilmiş və müvafiq qeydlərlə təsdiqlənmişdir.

**Nizamnama Kapital**

Cəmiyyətin Nizamnaməsinə əsasən ilkin nizamnamə kapitalı **1690 000** (Bir milyon altı yüz doxsan min manat) AZN məbləğində təsdiq edilmişdir.

**Shibagro Məhdud Məsuliyyətli Cəmiyyət**

Hüquqi ünvanı AZ4230 Lənkəran rayonu, Xarxatan

Nizamnamə kapitalı 690 129 AZN

Qanuni təmsilçi Babayev Məhəmməd Vüqar oğlu

**Rəhbərliyin Məsuliyyəti**

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən, rəhbərlik hər maliyyə ili üzrə Cəmiyyətin maliyyə vəziyyətini və maliyyə nəticələrini düzgün və ədalətli əks etdirən konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasını təmin etmək üçün məsuliyyət daşıyır.2025-cü il üzrə audit olunmuş konsolidasiya edilmiş maliyyə hesabatları qüvvədə olan normativ hüquqi

aktların tələblərinə uyğun şəkildə tərtib olunmuşdur. Rəhbərlik təsdiq edir ki, maliyyə vəziyyətini hər zaman dəqiqliklə əks etdirə biləcək adekvat və düzgün mühasibat uçotu sistemi qurulmuşdur.Həmçinin rəhbərlik bildirir ki, konsolidasiya edilmiş maliyyə hesabatlarında Cəmiyyətin real maliyyə vəziyyəti və əməliyyat nəticələri obyektiv şəkildə təqdim edilmiş, uyğun uçot siyasətləri seçilmiş və ardıcıllıqla tətbiq olunmuşdur.

---

**Direktor:** ________________

Azərbaycan Respublikası Lənkəran rayonu «A. M. O.» MMC

# Mündəricat

Mənfəət Zərər Haqqında Hesabat ........ 1
Kapitalda Dəyişiklik Haqqında Hesabat ........ 2
Maliyyə Vəziyyəti Haqqında Hesabat ........ 3
Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat ........ 4
Konsolidasiya edilmiş maliyyə hesabatlarında Şərhlər və Qeydlər ........ 5
Mühüm mühasibat uçotu mühakimələri, təxminləri və proqnozları ........ 6

**A.M.O MMC nin 31 dekabr 2025 cil tarixinə Konsolidasiya edilmiş Mənfəət və Zərər Haqqında Hesabatı**

## Mənfəət və zərər haqqında hesabat

STATEMENT OF INCOME FOR THE YEAR 2025

(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə olunur)

| | Qeyd | 2025-ci il | 2024-ci il |
|---|---|---|---|
| *Gəlirlər/Income* | 1 | 7,848,207.21 | 7,598,644.24 |
| *SMMD/Cost of Sales* | 2 | 450,389.61 | 597,075.70 |
| *Ümumi gəlirlər/Gross Income* | | 7,397,817.60 | 7,001,568.54 |
| ***Xərclər/Expenses*** | | | |
| *Kommersiya xərcləri/Commercial Expenses* | 3 | 274,586.87 | 230,635.64 |
| *Inzibati xərcləri/Administrative Expenses* | 4 | 5,549,440.50 | 729,512.62 |
| *Gəlirdən çıxılan vergilər/Taxes* | 5 | 4,312.75 | 1,054,613.98 |
| ***Cəmi Xərclər / Total Expenses*** | | **5,828,340.12** | **2,014,762.24** |
| *Mənfəət vergisindən əvvəlki gəlir/EBIT* | | 1,569,477.48 | 4,986,806.30 |
| ***Mənfəət Vergisi/Income Tax*** | 6 | **3,115.05** | - |
| *Vergidən çıxılmayan xərcləri* | | - | - |
| ***Xalis Menfəət/Zərər/Net Profit*** | 7 | **1,566,362.43** | **4,986,806.30** |

**Rəhbərlik adından konsolidasiya edilmiş maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər:**

Qanunu təmsilçi:

Azərbaycan Respublikası Lənkəran rayonu «A. M. O.» MMC

Baş Mühasib: Əliyev Elməddin

***A.M.O MMC nin 31 dekabr 2025 cil tarixinə Konsolidasiya edilmiş Kapitalda Dəyişikliklər Haqqında Hesabatı***

***31 dekabr 2025 ci il tarixinə Kapitalda Dəyişiklik Haqqında Hesabatı***

| | Ödənilmiş nizamnamə (nominal) kapital | Nizamnamə üzrə ehtiyat | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər) | Cəmi |
|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 |
| **Əvvəlki hesabat dövrünün əvvəlinə olan qalıq** | 2,380,129 | | 439,977 | (4,379,612) | (3,939,635) |
| Əvvəlki hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) d əyişikliklər | - | - | - | - | - |
| Elan olunmuş dividendlər | - | - | - | - | - |
| Hesabat dövrü üzrə mənfəət (zərər) | - | - | - | 4,986,806 | 4,986,806 |
| Hesabat dövrü üzr ə xalis aktivl ərd ə (kapitalda) cəmi dəyişikliklər | - | - | - | - | - |
| **Əvvəlki hesabat dövrünün sonuna olan qalıq** | 2,380,129 | - | 439,977 | 607,195 | 1,047,172 |
| Hesabat dövrü üzr ə xalis aktivlərdə (kapitalda) dəyişikliklər | - | - | - | - | - |
| Elan olunmuş dividendlər | - | - | - | - | - |
| Hesabat dövrü üzrə mənfəət (zərər) | - | - | - | 1,566,362 | 1,566,362 |
| Hesabat dövrü üzrə xalis aktivlərdə (kapitalda) cəmi | - | - | - | - | - |
| **Hesabat dövrünün sonuna olan qalıq** | 2,380,129 | - | 439,977 | 2,173,557 | 4,993,663 |

*Rəhbərlik adından konsolidasiya edilmiş maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər :*

*Qanuni təmsilçi:*

Azərbaycan Respublikası Lənkəran rayonu «A. M. O.» MMC

*Baş Mühasib:*

*A.M.O MMC nin 31 dekabr 2025 cil tarixinə Konsolidasiya edilmiş Maliyyə Vəziyyəti Haqqında Hesabatı*

**31 dekabr 2025 ci il tarixinə Maliyyə Vəziyyəti Haqqında Hesabatı**

**Financial Position as at 31-12-2025**

**(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə olunur)**

| | Qeyd | 2025-ci il | 2024-ci il |
|---|---|---|---|
| **Aktivlər/Assets** | | | |
| Uzunmüddətli aktivlər/Non current assets | | | |
| Torpaq, tikili və avadanlıqlar/ PPE | 8 | 8,340,025 | 6,580,439 |
| Qeyri-maddi aktivlər/Intangible assets | | 29,789 | - |
| Daşınmaz əmlaka investisiyalar/Investment | | - | - |
| Kapitallaşdırma üçün aktivlər | | 2,309,112 | 1,399,775 |
| **Cəmi uzunmüddətli aktivlər/Total noncurrentassets** | | **10,678,926** | **7,980,213** |
| Qısamüddətli aktivlər/Short termassets | | | |
| Ehtiyatlar/ Inventories | 9 | 1,220,972 | 646,021 |
| Qısamüddətli debitor borcları/Short term receivable | 10 | 1,921,025 | 608,129 |
| Pul vəsaitləri və onların ekvivalentləri / Cash and cash equivalants | 11 | 8,409,755 | 576,701 |
| Sair qısamüddətli aktivlər/Other short term assets | | 8,970,551 | 8,802,428 |
| **Cəmi qısa müddətli aktivlər/Total Short Term Assets** | | **20,522,303** | **10,633,278** |
| **Cəmi Aktivlər/Total Assets** | | **31,201,229** | **18,613,492** |
| **Kapital və Öhdəliklər/Capital and Liablities** | | | |
| **Kapital/Capital** | | | |
| Nizamnamə kapitalı/ Authorised share capital | 12 | 2,380,129 | 2,380,129 |
| Bölüşdürülməmiş mənfəət (ödənilməmiş zərər)/Retained earnings | | 2,173,557 | 607,195 |
| Kapital ehitiyatları/ Capital reserves | | 439,977 | 439,977 |
| **Cəmin Kapital/Total Capital** | | **4,993,663** | **3,427,301** |
| **Öhdəliklər/Liablities** | | | |
| **Uzunmüddətli öhdəliklər/ Long Term Liablities** | | | |
| Uzunmüddətli faiz xərcləri yaradan öhdəliklər/long Term Loans | | 17,033,160 | 7,181,545 |
| Uzunmüddətli qiymətləndirilmiş öhdəliklər/Long term Provisions | | - | - |
| Təxirə salınmış vergi öhdəliyi/Deffered tax liablities | | - | - |
| Uzunmüddətli kreditor borcları/Long term payable | | - | - |
| Sair uzunmüddətli öhdəliklər/Other current liablities | | - | - |
| **Cəmi uzunmüddətli öhdəliklər/Total LT Liablities** | | **17,033,160** | **7,181,545** |
| **Qısamüddətli Öhdəliklər /Short term liablities** | | | |
| Qısamüddətli kreditor borcları/Short term liablities | 13 | 609,111 | 663,015 |
| Sair qısamüddətli öhdəliklər/ Other current liablities | | 8,565,295 | 7,341,631 |
| **Cəmi qısamüddətli öhdəliklər/ Total current liablities** | | 9,174,405 | 8,004,646 |
| **Cəmi öhdəliklər/ Total liablities** | | **9,174,405** | **15,186,191** |
| **Cəmi kapital və öhdəliklər/ Total Equity and liablities** | | **31,201,229** | **18,613,492** |

Rəhbərlik adından konsolidasiya edilmiş maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər :

Qanunu təmsilçi: ____________

Baş Mühasib: ____________ Əliyev Elmədər

Azərbaycan Respublikası Lənkəran rayonu «A. M. O.» MMC

**Pul Vəsaitlərinin Hərəkəti Haqqında Hesabat**
**Cash flow statement as at 31-12-2025**
**(Xüsusi qeyd edilmiş hallar istisna olmaqla məbləğlər Azərbaycan manatı ilə ifadə olunur)**

| | 2025-ci il | 2024-ci il |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti/ Net cash flow from Operating activities** | **2831524.64** | **-2054561.36** |
| Hesabat dövrü üzrə xalis mənfəət/Net profit for the period | 1,566,362 | (263,075) |
| Amortizasiya xərcləri/ Depreciation on PPE/Intangible asset | 2,151,373 | - |
| Material ehtiyatlarının artması (azalması)/ Increase or (decrease) of current assets | (574,951) | (646,021) |
| Debitor borclarının artması (azalması)/ Increase (dicrease) of trade receivables | (1,312,896) | (608,129) |
| Sair qısamüddətli aktivlərdə artma (azalma)/ Increase/discrease of short term assets | (168,123) | (8,005,257) |
| Kreditor borclarının artması (azalması)/ Increase/Decrease) in Trade payables | (53,905) | 126,290 |
| Sair qısamüüddətli öhdəliklərdə artım/ Increase in other short term liabilities | 1,223,664 | 7,341,631 |
| **Maliyyə fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti/ Net cash flow from financing activities** | **9,851,615** | **7,181,545** |
| Dividend ödənişi/ Dividend Payment | - | - |
| Uzunmüddətli faiz xərcləri və ya öhdəliklər/Term Loans | 9,851,615 | 7,181,545 |
| **İnvestisiya fəaliyyətindən pul vəsaitlərinin xalis hərəkəti / net Cash flow from investing activities** | (4,850,085.65) | (4,550,600.63) |
| Uzunmüddətli qeyri-maliyyə aktivlərinin satışından pul vəsaitlərinin daxilolmaları | (4,850,086) | (6,680,578) |
| Nizamnamə qoyuluşu | - | 1,690,000 |
| Kapital ehtiyatları/Increase/discrease of Capital reserves | 0 | 439977 |
| **Pul vəsaitləri və onların ekvivalentlərinin xalis hərəkəti/ net movement in cash and cash flows** | 7,833,054 | 576,383 |
| **Dövrün əvvəlinə pul vəsaiti/The beginning of the year** | 576,701 | 318 |
| **Dövrün sonuna pul vəsaiti/End of the year** | **8409755.06** | **576700.68** |

Rəhbərlik adından konsolidasiya edilmiş maliyyə hesabatlarını imzalayan və buraxılmasına icazə verənlər:

Qanunu təmsilçi: ____________

Azərbaycan Respublikası Lənkəran rayonu «A. M. O.» MMC

Baş Mühasib: ____________ Əliyev Elməddin

Cari konsolidasiya edilmiş maliyyə hesabatları "A.M.O" Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra — "Cəmiyyət") üzrə 31 dekabr 2025-cü il tarixində başa çatan maliyyə ilinə dair tərtib edilmişdir və Konsolidasiya edilmiş maliyyə hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun şəkildə hazırlanmışdır.

Cəmiyyət Azərbaycan Respublikasında qeydiyyatdan keçmiş hüquqi şəxsdir və fəaliyyətini Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyi, o cümlədən Mülki Məcəllə və digər normativ hüquqi aktlar çərçivəsində həyata keçirir. Cəmiyyətin əsas fəaliyyət istiqamətləri nizamnaməsinə uyğun olaraq müəyyən edilmiş və bu fəaliyyət MHBS-ə uyğun konsolidasiya edilmiş maliyyə hesabatları vasitəsilə şəffaf və düzgün şəkildə əks etdirilmişdir.

**Cəmiyyət haqqında ümumi məlumat**

"A.M.O " Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra Cəmiyyət) 18.04.1995 ci il tarixdə məhdud məsuliyyətli cəmiyyət olaraq VÖEN 2600270961 qeydiyyata alınmışdır. Şirkətin qeydə alınmış hüquqi ünvanı AZ4230, Lənkəran rayonu, Xarxatan.

**Mühüm Mühasibat Uçotu Prinsiplərinin Icmalı**

**Fəaliyyətin fasiləsizliyi və ilkin dəyər prinsipi**

Hazırkı konsolidasiya edilmiş maliyyə hesabatları Cəmiyyətin fəaliyyətini fasiləsiz davam etdirəcəyi fərziyyəsinə əsaslanaraq tərtib edilmişdir. Hesabatlarda aktivlər və öhdəliklər, xüsusi hallar istisna olmaqla, ilkin dəyər əsasında qiymətləndirilmişdir. İlkin dəyər, aktivlərin əldə olunması üçün ödənilən məbləğin və ya müvafiq müqabil dəyərin ədalətli dəyərini əks etdirir.

**Hesabat valyutası və təqdimat**

Konsolidasiya edilmiş maliyyə hesabatlarında bütün qeydlər Azərbaycan manatı (AZN) ilə aparılır. Hesabatlar, istisna hallar xaric, AZN formatında təqdim olunur.

**Uçot siyasəti**

Bu konsolidasiya edilmiş maliyyə hesabatlarında istifadə olunan əsas uçot siyasəti müddəaları aşağıda əks etdirilmişdir. Əgər başqa cür göstərilməyibsə, qeyd olunan siyasətlər bütün hesabat dövrləri ərzində ardıcıl tətbiq edilmişdir.

**Hesabatların tərtibatının hüquqi və normativ əsası**

"A.M.O" MMC mühasibat uçotunu Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə aparır. Konsolidasiya edilmiş maliyyə hesabatları "Mühasibat Uçotu haqqında" Azərbaycan Respublikası Qanunu və Beynəlxalq Maliyyə Hesabatları Standartlarına (BMHS) uyğun olaraq hazırlanmışdır.

Hesabatlarda, əməliyyatların iqtisadi mahiyyətini əks etdirmək məqsədilə müəyyən təsnifat dəyişiklikləri edilmiş və bəzi aktiv və öhdəliklər yenidən təsnifləşdirilmişdir. Yenidən qiymətləndirilmiş aktivlər (məsələn, torpaq, binalar və satış üçün saxlanılan maliyyə aktivləri) ədalətli dəyər əsasında ölçülmüş və bu dəyişikliklər mənfəət və zərər hesabatında əks olunmuşdur.

**Peşəkar mülahizə və qiymətləndirmə**

BMHS -ın tələblərinə əsasən, rəhbərlik konsolidasiya edilmiş maliyyə hesabatlarının hazırlanmasında əsas qiymətləndirmələri və mülahizələri həyata keçirir. Bu mülahizələr Cəmiyyətin uçot siyasətinin tətbiqinə və hesabatın məzmununa əhəmiyyətli təsir göstərə bilər.

**Təqdimatın davamlılığı**

Konsolidasiya edilmiş maliyyə hesabatlarının maddələrinin təqdimat forması və təsnifatı hesabat dövrləri üzrə eyni prinsiplərlə həyata keçirilir. Aşağıdakı hallarda dəyişikliklər mümkündür:

- Əməliyyatların xarakterində mühüm dəyişiklik baş verdikdə;
- Beynəlxalq və ya milli standartlar tərəfindən tələb olunduqda.

**Hesablama prinsipi**

Konsolidasiya edilmiş maliyyə hesabatları hesablama prinsipi əsasında hazırlanmışdır. Bu prinsip gəlir və xərclərin faktiki pul axınından asılı olmayaraq, onların yaranma vaxtına görə tanınmasını nəzərdə tutur.

**Gəlir və xərclərin tanınması**

*(a) Xidmətlərdən əldə olunan gəlirlər*

Xidmət göstərilməsindən yaranan gəlir, müvafiq xidmətlərin faktiki olaraq təqdim edildiyi hesabat dövründə tanınır. Gəlirin tanınması, konkret müqavilənin yerinə yetirilmə dərəcəsinə əsaslanır. Bu dərəcə, göstərilmiş xidmətlərin həcminin ümumi müqavilə üzrə nəzərdə tutulmuş xidmət həcminə nisbəti kimi qiymətləndirilir.

*(b) Faiz gəlirləri*

Faiz gəlirləri **effektiv faiz dərəcəsi metodu** əsasında, zaman nisbətinə uyğun şəkildə tanınır. Əgər debitor borcunun dəyəri aşağı düşərsə, Cəmiyyət həmin borcu **əvəzi ödənilə bilən dəyərə** qədər azaldır. Bu dəyər, ilkin tanınma tarixindən etibarən gözlənilən pul axınlarının effektiv faiz dərəcəsi ilə diskontlaşdırılması yolu ilə müəyyən edilir. Dəyəri azaldılmış aktiv üzrə faiz gəlirləri yalnız müvafiq şərtlər daxilində, pul vəsaitlərinin faktiki daxil olması və ya ödənişlərin həyata keçirilməsi zamanı tanınır.

*(c) Dividend gəlirləri*

Dividend gəlirləri o zaman tanınır ki, Cəmiyyətin müvafiq dividendlərə olan **hüququ** rəsmi şəkildə müəyyən edilmişdir (yəni səhmdar kimi mənfəətdən pay almaq hüququ yarandığı anda tanınır)

**Cəmiyyətin əməliyyat mühiti**

Azərbaycan Respublikası inkişaf etməkdə olan bazar iqtisadiyyatına malikdir. Son illərdə ölkədə sabit iqtisadi artım müşahidə olunsa da, hazırkı qlobal maliyyə qeyri-müəyyənlikləri müəyyən risklər yarada bilər. Bu tendensiyaların Cəmiyyətin maliyyə vəziyyətinə təsirini əvvəlcədən dəqiq proqnozlaşdırmaq mümkün deyil.

**Vergitutma prinsipləri**

Mənfəət vergisi, Cəmiyyətin vergiyə cəlb edilən gəliri ilə çıxıla bilən xərclər arasındakı fərq əsasında hesablanır. Vergitutma obyekti Cəmiyyətin rezident və ya qeyri-rezident olmasından asılı olaraq müəyyən edilir.Əsas vəsaitlərin yenidən qiymətləndirilməsi nəticəsində yaranan artım (müsbət fərq) mənfəət vergisinin obyektinə daxil edilmir.

**Satışlardan gəlir (Qeyd 1)**

- Satış gəliri — Cəmiyyətin malların satışı və ya xidmətlərin göstərilməsi nəticəsində əldə etdiyi ümumi gəlirdir. Bu gəlir **mənfəət və zərər haqqında hesabatda** ya **ümumi satış gəliri**, ya da **xalis satış gəliri** kimi təqdim oluna bilər:
- **Ümumi satış gəliri**, satışdan geri qaytarmalar, endirimlər və şübhəli borc xərcləri kimi **kontra-gəlir** hesablarından **əvvəl** hesablanır;
- **Xalis satış gəliri** isə bu elementlər çıxıldıqdan **sonra** müəyyən olunur.

Satış gəliri, **"yuxarıdan aşağıya" yanaşmanın** əsas komponentlərindən biri olaraq, mənfəət və zərər hesabatının proqnozlaşdırılmasında əhəmiyyətli rol oynayır. Bu səbəbdən gəlirlərin **dəqiq proqnozlaşdırılması** Cəmiyyətin maliyyə planlaşdırması baxımından olduqca vacibdir.

**Satış gəlirinin konsolidasiya edilmiş maliyyə hesabatında rolu**

Mənfəət və zərər haqqında hesabatın ilk sətri adətən satış gəliri ilə başlayır ki, bu da aşağıdakı səbəblərlə önəmlidir:

**Net gəlirin hesablanması üçün başlanğıc nöqtə:**

- Satış gəlirindən ilk olaraq **satılmış malların maya dəyəri (COGS)** çıxılır və nəticədə **ümumi mənfəət** müəyyən edilir.
- Daha sonra **əməliyyat xərcləri** (məsələn, satış, ümumi və inzibati xərclər – SG&A) ümumi mənfəətdən çıxılaraq **əməliyyat mənfəəti (EBIT)** hesablanır.
- EBIT-dən faiz xərcləri çıxıldıqdan sonra **vergidən əvvəlki mənfəət**, və daha sonra vergi çıxılmaqla **xalis mənfəət** əldə olunur.

| Gəlirlər | 7,848,207.21 |
|---|---|
| SHIBAGRO MMC | 694,756.06 |
| A.M.O MMC | 7,153,451.15 |

**Proqnozlaşdırma və trend təhlili üçün əsas göstərici:**

- Satış gəliri mənfəət və zərər hesabatında "üst sətr" (top line) kimi tanınır və digər bütün maliyyə göstəricilərinin formalaşmasında əsas baza rolunu oynayır.
- Tarixi satış trendlərinin təhlili və bu trendlərə əsasən gələcək dövrlər üçün **gəlir proqnozlarının hazırlanması**, maliyyə planlaşdırmasının mühüm mərhələsidir.
- Hesabatdakı digər xərclər və göstəricilər, adətən, satış gəlirinə **nisbət** kimi ifadə olunur (məsələn, xərclərin satışa olan faizi).

**SMMD - Satılan malın maya dəyəri (Qeyd 2)** Cəmiyyətin məhsul istehsalı və ya xidmət təqdimatı prosesində istifadə olunan birbaşa xərcləri əks etdirən mühüm maliyyə göstəricisidir. Bu göstərici, şirkətin məhsul və xidmətlərinin nə qədər xərc hesabına başa gəldiyini ölçmək üçün istifadə olunur və maliyyə performansının qiymətləndirilməsində əsas rol oynayır.

Satılmış malların maya dəyəri aşağıdakı komponentləri əhatə edir:

- Xammal və material xərcləri
- Əmək haqqı və istehsalatla bağlı əmək xərcləri
- İstehsalatla birbaşa əlaqəli digər xərclər (məsələn, enerji, avadanlıq istismarı)
- Tədarük, saxlanma və satışa hazırlıq xərcləri

Bu məlumat, Cəmiyyətin:

- Məhsul və xidmətlər üzrə effektivlik dərəcəsini,
- Əməliyyat mənfəətliliyini,
- Həmçinin qiymət siyasətinin səmərəliliyini təhlil etmək və optimallaşdırmaq üçün vacib əsas yaradır.

COGS göstəricisi, həmçinin ümumi mənfəətin (gross profit) hesablanmasında da əsas baza kimi çıxış edir və bu səbəbdən mənfəət və zərər haqqında hesabatın mühüm komponentlərindən biridir.

| SMMD/Cost of Sales | 450389.6 |
|---|---|
| SHIBAGRO MMC | 41308.11 |
| A.M.O MMC | 409081.5 |

**Kommersiya xərcləri (Qeyd 3)** Cəmiyyətin məhsul və xidmətlərin satışı, bazarlaması və çatdırılması ilə bağlı çəkdiyi xərcləri əhatə edir. Bu xərclərə aşağıdakılar daxildir:

- Qablaşdırma və taralar;
- Nəqliyyat və yükləmə;
- Komisyon haqları;
- Satış məntəqələrinin saxlanması;
- Reklam və marketinq xərcləri.

Qablaşdırma və daşınma xərcləri birbaşa məhsulun maya dəyərinə əlavə olunur. Əgər bu mümkün deyilsə, həmin xərclər məhsullar arasında planlaşdırılmış göstəricilərə əsasən bölüşdürülür. Qalan kommersiya xərcləri isə hər ay yüklənmiş məhsulun maya dəyərinə aid edilir.

| Kommersiya xərcləri | 274,586.87 |
|---|---|
| SHIBAGRO MMC | 42,967.34 |
| A.M.O MMC | 231,619.53 |

**Pensiya təminatı və işçilərə digər ödənişlər üzrə öhdəliklər**

Qeyri neft-qaz və özəl sektor üçün (01.01.2025 tarixindən):

- **Gəlir vergisi:**
  - 8 000 AZN-dək vergiyə cəlb olunan məbləğə 0%
  - 8 000 AZN-dən yuxarı məbləğə 14% tətbiq edilir
- **Dövlət Sosial Müdafiə Fonduna (DSMF) ayırmalar:**
  - 200 AZN-dək: əmək haqqının 3%-i
  - 200 AZN-dən yuxarı: 6 AZN + artan məbləğin 10%-i
- **İşsizlikdən sığorta haqqı:** əmək haqqının 0.5%-i
- **İcbari tibbi sığorta haqqı:**
  - 8 000 AZN-dək: əmək haqqının 1%-i
  - 8 000 AZN-dən yuxarı: 80 AZN + artan məbləğin 0.5%-i
- **Həmkarlar təşkilatına üzvlük haqqı:** əmək haqqının müəyyən faizi əsasında tutulur
- 01.01.2025 tarixinədək 8 000 AZN-dək əmək haqqının 50%-nə güzəşt tətbiq olunur.

Dövlət və neft-qaz sektoru üçün:

**Gəlir vergisi:**

- 2 500 AZN-dək: (əmək haqqı – 200 AZN) × 14%
- 2 500 AZN-dən yuxarı: 350 AZN + (artıq məbləğ) × 25%

- **DSMF ayırmaları:** əmək haqqının 3%-i
- **İşsizlikdən sığorta haqqı:** əmək haqqının 0.5%-i
- **İcbari tibbi sığorta haqqı:**

- 8 000 AZN-dək: əmək haqqının 2%-i
- 8 000 AZN-dən yuxarı: 160 AZN + artan məbləğin 0.5%-i

- **Həmkarlar təşkilatına üzvlük haqqı:** əmək haqqının müəyyən faizi əsasında tutulur

**Yekun ödəniləcək əmək haqqı**, əmək haqqından yuxarıda göstərilən vergi və ayırmaların çıxılması yolu ilə müəyyən edilir.

**İnzibati xərclər (Qeyd 4)** İnzibati xərclər, bir təşkilatın əməliyyat və idarəetmə proseslərini dəstəkləmək, tənzimləmək və yerinə yetirmək üçün sərf etdiyi maliyyə resurslarıdır. Bu xərclər administrativ və idarəetmə fəaliyyətləri ilə bağlıdır və bir təşkilatın günlük fəaliyyətinin düzgün və effektiv şəkildə həyata keçirilməsini təmin etməyə yönlənmişdir. Bu xərclər, bir təşkilatın normal əməliyyatları üçün tələb olunan idarəetmə və administrativ resursların sərf edilməsini əks etməkdədir. İnzibati xərclər, effektiv idarəetmənin təminatı və təşkilatın dayanıqlılığının qorunması üçün əhəmiyyətli məqamları əhatə edir.

| **Inzibati xərcləri** | **5,549,440.50** |
|---|---|
| SHIBAGRO MMC | 283,946.38 |
| A.M.O MMC | 5,265,494.12 |

**Əmlak vergisi (Qeyd 5)** Mülkiyyətində vergitutma obyektləri olan fiziki şəxslər və müəssisələr əmlak vergisinin ödəyiciləridir. Azərbaycan Respublikasının ərazisində sahibliyində tikililər və ya onların hissələri (bundan sonra bina adlandırılacaq) olan rezident və qeyri-rezident fiziki şəxslər, həmçinin yerindən və istifadə edilib-edilməməsindən asılı olmayaraq xüsusi mülkiyyətində su və hava nəqliyyatı vasitələri olan rezident fiziki şəxslər əmlak vergisinin ödəyiciləridir. Rezident müəssisələr və Azərbaycan Respublikasında özünün daimi nümayəndəliyi vasitəsilə sahibkarlıq fəaliyyətini həyata keçirən qeyri-rezident müəssisələr əmlak vergisinin ödəyiciləridir. Müəssisələr əsas vəsaitlərin orta illik qalıq dəyərindən 1 faiz dərəcəsi ilə əmlak vergisi ödəyirlər. Əmlak vergisi müəssisənin əmlakının orta illik qalıq dəyərinə əsasən hesablanır. AR Vergi Məcəlləsinin 13.2.22 maddəsinə əsasən: "Əmlakın qalıq dəyəri əsas vəsaitlərin ilkin dəyərinin həmin əsas vəsaitlərə hesablanmış amortizasiyanın məbləği qədər azaldılan dəyəridir." Müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda əmlak vergisi bazar qiyməti nəzərə alınmaqla hesablanır. Belə ki, AR Vergi Məcəlləsinin 14.3.4 maddəsinə əsasən müəssisənin əmlakı qalıq dəyərindən artıq qiymətə sığortalandığı halda vergilərin hesablanması bazar qiyməti nəzərə alınmaqla aparılır. Sığortalanan əmlakın dəyəri bazar qiyməti nəzərə alınmaqla hesablandığı halda, həmin əmlaka əmlakın orta illik qalıq dəyərindən əmlak vergisinin hesablanması qaydası (AR Vergi Məcəlləsi, Maddə:202) tətbiq edilmir.

| **Gəlirdən çıxılan vergilər** | **4312.75** |
|---|---|
| SHIBAGRO MMC | 0 |
| A.M.O MMC | 4312.75 |

**Mənfəət vergisi (Qeyd 6)**

Mənfəət vergisi hazırkı konsolidasiya edilmiş maliyyə hesabatlarında balans tarixinə Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə uyğun olaraq hesablanmışdır. Mənfəət vergisi xərci cari və təxirə salınmış mənfəət vergisindən ibarət olub, mənfəət və zərər hesabatında qeydə alınır. Lakin, həmin və ya başqa dövrdə bilavasitə kapitalın hesablarında qeydə alınan əməliyyatlara aid olan vergilər bilavasitə kapital hesablarında qeydə alınır.

Cari mənfəət vergisi, cari və ya əvvəlki dövrlər üzrə vergiyə cəlb edilən və ya zərər ilə əlaqədar vergi orqanların ödəniləcək və ya onlardan geri alınacaq (əvəzləşdiriləcək) məbləği təşkil edir.Vergiyə cəlb edilən mənfəət və ya zərər, konsolidasiya edilmiş maliyyə hesabatlarının müvafiq vergi bəyannamələrinin təqdim edilməsindən əvvəl təsdiqləndiyi halda təxmini göstəricilərə əsasən hesablanır. Mənfəət vergisindən başqa digər vergilər inzibati və digər əməliyyat xərcləri kimi qeydə alınır.

Təxirə salınmış mənfəət vergisi üzrə ehtiyat (rezerv) öhdəliklər metodu istifadə edilməklə tam həcmdə yaradılır. Təxirə salınmış mənfəət vergisi, aktivlərin və öhdəliklərin vergitutma bazası ilə onların konsolidasiya edilmiş maliyyə hesabatlarında əks etdirilmiş balans dəyəri arasında meydana çıxan bütün zaman fərqləri üzrə müəyyən edilir. Lakin, təxirə salınmış mənfəət vergisi, aktivlərin və ya öhdəliklərin ilkin tanınması zamanı meydana çıxırsa, o halda təxirə salınmış mənfəət vergisi uçotda əks etdirilmir (əgər, sövdələşmənin həyata keçirildiyi anda və nə mühasibat mənfəətinə, nə də vergiyə cəlb edilən mənfəətə təsir etməyən biznesin birləşdirilməsi ilə əlaqədar deyildirsə). Təxirə salınmış mənfəət vergisi mühasibat balansının tərtib edilmə tarixinə qüvvədə olan Azərbaycan Respublikasının Vergi Məcəlləsində müəyyən edilmiş vergi dövrlərinə müvafiq olaraq hesablanır.

Təxirə salınmış vergi aktivləri o zaman tanınır ki, gələcəkdə zaman fərqləri məbləğində azaldıla biləcək vergiyə cəlb ediləsi mənfəət əldə edilməsi ehtimalı vardır.

**Bölüşdürülməmiş Mənfəət (Qeyd 7)**

Bölüşdürülməmiş mənfəət – divident ödənişləri çıxıldıqdan sonra Cəmiyyətin saxladığı xalis mənfəətdir. Bu məbləğ səhmdarlara divident kimi paylanmayaraq, gələcək investisiya ehtiyacları və əməliyyat fəaliyyətlərinin maliyyələşdirilməsi məqsədilə şirkət daxilində saxlanılır.

Bölüşdürülməmiş mənfəət aşağıdakı hallarda dəyişir:

- Artır: yeni mənfəət əldə olunduqda;
- Azalır: zərər baş verdikdə və ya divident ödənişi həyata keçirildikdə.

Bu göstərici Cəmiyyətin maliyyə dayanıqlılığını və gələcək inkişaf potensialını əks etdirən mühüm göstəricilərdən biridir.

| **Xalis Menfəət/Zərər** | **1566362.43** |
|---|---|
| SHIBAGRO MMC | 325419.18 |
| A.M.O MMC | 1240943.25 |

**Uzun müddətli aktivlər və Amortizasiya ayırmaları (Qeyd 8)**

Əsas vəsaitlər elə maddi aktivlərdir ki:

(a) Mal və xidmətlərin istehsalı və təchizatında istismar edilir, gələcəkdə icarəyə verilmək və ya inzibati məqsədlər üçün istifadə e q qdilir;

(b) Bir dövrdən artıq dövr ərzində istifadə edilməsi gözlənilir.

Torpaq və binalara əsasən inzibati bina və ofis sahələri, istehsal sahələri və binaları, ticarət sahələri və binaları daxildir. Hesabat dövrünün sonuna torpaq və binalar bazar qiymətlərinə müvafiq surətdə ədalətli dəyər üzrə yenidən qiymətləndirilməmişdir.

Ədalətli dəyər– yaxşı məlumatlandırılmış, razılığa gəlmiş və bir-birindın asılı olmayan tərəflər arasında ticari sövdələşmələrdə aktivin mübadilə edildiyi dəyərdir. Binalar üzrə ədalətli dəyər müstəqil kənar qiymətləndirici tərəfindən vaxtaşırı keçirilən (adətən üç ildən bir dəfədən az olmayaraq) qiymətləndirmə ilə müəyyənləşdirilir (amortizasiya ayırmaları çıxılmaqla). Yenidən qiymətləndirmə tarixinə yığılmış istənilən amortizasiya məbləği aktivin balans dəyərindən silinir və xalis dəyər yenidən qiymətləndirmə dəyərinə hesablanır. Qalan bütün əsas vəsaitlər ilkin dəyərlə amortizasiya ayırmaları çıxılmaqla əks etdirilir.

İlkin dəyər bu aktivlərin əldə edilməsi ilə birbaşa əlaqədar olan xərcləri nəzərdə tutur. İlkin dəyərə həmçinin valyuta ilə alınmış əsas vəsaitlərin hedcinqi üzrə kapitala keçirilən pul vəsaitlərinin axını üzrə mənfəət və zərərlər də daxil edilir.

Sonrakı xərclər aktivin balans dəyərinə yalnız o vaxt əlavə edilir və ya ayrıca aktiv kimi qəbul edilir ki, bu aktivlərlə əlaqədar olan gələcək iqtisadi səmərələr Cəmiyyətə keçsin və düzgün qiymətləndirilə bilinsin. Qalan bütün cari təmir və istismar xərcləri o dövrün mənfəət və zərərlər haqqında hesabatında əks etdirilir ki, həmin dövrdə bu xərclər çəkilmişdir.

Torpaq və binalarin yenidən qiymətləndirilməsi üzrə balans dəyərinin artması kapitalın tərkibində sair ehtiyatlar (rezervlər) hesabına aid edilir. Balans dəyərinin həmin aktiv üzrə əvvəlki qiymətləndirmə artımı hədləri daxilində azalması birbaşa kapitalın tərkibində ədalətli dəyər üzrə ehtiyatlar (rezervlər) hesabına aid edilir; balans dəyərinin qalan bütün azalmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

Hər il aktivin yenidən qiymətləndirilmiş balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları (amortizasiya ayırmaları mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir) və aktivin ilkin balans dəyəri əsasında hesablanmış amortizasiya ayırmaları arasındakı fərq, ədalətli dəyər üzrə ehtiyyat (rezerv) hesabından "Bölüşdürülməmiş mənfəət" hesabına keçirilir.

Amortizasiya ayırmaları və gəlirdən amortizasiya olunan aktivlər üzrə çıxılan məbləğlər. İlin sonuna qalıq dəyəri əsasında hesablanmış əsas vəsaitlər üzrə amortizasiya ayırmaları gəlirdən çıxılır. Əsas vəsaitlər istifadə müddəti bir ildən çox olan və

dəyəri 500 manatdan çox olan, amortizasiya edilməli olan maddi aktivlərdir. Amortizasiya olunan aktivlər üzrə illik amortizasiya normaları aşağıdakı kimi müəyyən edilir:

- Torpaqların yaxşılaşdırılması üzrə kapitallaşdırılmış xərclər, binalar, tikintilər və qurğular 7% dək; maşınlar və avadanlıq 20% dək;
- Yüksək texnologiyalar məhsulu olan hesablama texnikası üzrə 25% dək;
- Nəqliyyat vasitələri 25% dək;
- İş heyvanları 20% dək;
- Geoloji-kəşfiyyat işlərinə və təbii ehtiyatların hasilatına hazırlıq işlərinə çəkilən xərclər 25%dək;
- Qeyri-maddi aktivlər istifadə müddəti məlum olmayanlar üçün 10 faizədək, istifadə müddəti məlum olanlar üçün isə illər üzrə istifadə müddətinə mütənasib məbləğlərlə;
- Digər əsas vəsaitlər 20% dək;

Aktivlərin ləğv edilmə dəyərinə və onların faydalı istismar müddətinə vaxtaşırı yenidən baxılır və zərurət olduqda, hər bir hesabat dövrünə təshih edilir.

Əsas vəsaitlərin xaricolmasından mənfəət və zərərlər bu əsas vəsaitlərin satışı ilə onların balans dəyərinin müqayisə edilməsi yolu ilə müəyyən edilir. Xaricolmalardan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir.

| **Torpaq, tikili və avadanlıqlar** | **8340025** |
|---|---|
| SHIBAGRO MMC | 407366 |
| A.M.O MMC | 7932659 |

**Aktivlərin qiymətdən düşməsi**

Faydalı istismar müddəti müəyyən edilə bilinməyən aktivlər amortizasiya olunmur və hər il qiymətdən düşmə məqsədləri üçün testləşdirmə aparılır. Amortizasiya olunan aktivlər, əgər hər hansı bir hadisə və ya şəraitin dəyişməsi balans dəyərinin bu aktivlərin əvəzinin ödənilmə dəyəri olmasını göstərirsə, hər dəfə qiymətdən düşmə məqsədləri üçün qiymətləndirilir. Qiymətdən düşmə zərəri aktivin balans dəyərinin onun əvəzinin ödənilmə dəyərindən artıq olan məbləğində tanınır. Əvəzinin ödənilməsi dəyəri aşağıdakı iki meyarlardan daha böyük olan məbləğlərdən biridir:

- Aktivin satışı üzrə xərclər çıxılmaqla ədalətli;
- İstifadə edilmə dəyəri.

Aktivlərin qiymətdən düşməsi məqsədləri üçün aktivlər pul axınlarını eyniləşdirən qruplaşdırma qaydasında ən kiçik qruplara bölünür.

**Mal-material ehtiyatları (Qeyd 9)**
Ehtiyatlar iki göstəricidən ən aşağı dəyərə malik olan qiymət üzrə əks etdirilirlər:
(a) Maya dəyəri
(b) Xalis satış dəyəri
Ehtiyatlar faktiki maya dəyəri ilə əks etdirilir. Ehtiyatların maya dəyəri birinci satınalmaların qiyməti üzrə (FİFO metodu) hesablanır. Hazır məhsulun və bitməmiş istehsalın maya dəyərinə xammal və material xərcləri, istehsal işçilərinin əmək haqqı xərcləri, sair birbaşa xərclər, həmçinin inzibati xərclərin müvafiq hissəsi daxil edilir. Xalis satış dəyəri – adi təsərrüfat fəaliyyəti zamanı qiymətləndirilmiş mümkün satış qiyməti ilə satış üzrə xərclər arasışdakı fərq məbləğidir. Ehtiyatların dəyərinə, bu xammal və material ehtiyatlarının əldə edilməsi ilə bağlı olan və müvafiq pul axınının hedcinqləşdirilməsi alətləri üzrə mənfəət və zərərlər hesabından keçirilmiş zərərlər daxil edilir

| **Ehtiyatlar** | **1220972** |
|---|---|
| SHIBAGRO MMC | 592976.6 |
| A.M.O MMC | 627995.4 |

**Malsatan və podratçılara qısamüddətli debitor borcları (Qeyd 10)**

"Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları" – Cəmiyyət tərəfindən təqdim olunmuş mallar, yerinə yetirilmiş işlər və göstərilmiş xidmətlər üzrə alıcılardan və sifarişçilərdən 12 aydan az müddətə olan alacaqları əhatə edir.

Bu borclar Cəmiyyətin balansında qısamüddətli aktivlər kimi tanınır və aşağıdakı xüsusiyyətlərə malikdir:

- Müştərilərlə bağlanmış müqavilələr əsasında yaranır;
- Ödənişlər adətən qısa müddətdə – bir neçə gün və ya ay ərzində daxil olur;
- Likvid aktiv hesab edilir və lazım olduqda qısa müddətli maliyyə öhdəliklərinin yerinə yetirilməsində istifadə edilə bilər.

Uçot prinsipi:

- Debet: Alıcılara təqdim edilmiş məhsul və xidmətlər üzrə yaranan borc
  → "Alıcıların və sifarişçilərin qısamüddətli debitor borcları"
- Kredit:
  → "Satış" və ya "Sair əməliyyat gəlirləri" hesabları
- Əks əməliyyatlar: Müvafiq ödəniş daxil olduqda və ya avans qəbul edildikdə bu hesabın krediti müxabir hesablarla əks olunur.

Bu göstərici Cəmiyyətin dövrü pul axını, müştəri ilə münasibətlərin idarə olunması və kredit risklərinin qiymətləndirilməsi baxımından mühüm əhəmiyyətə malikdir.

**Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri (Qeyd 11)** - Pul vəsaitləri və onların ekvivalentləri asanlıqla nağd pula çevrilə bilən, dəyəri cüzi dəyişkənliyə məruz qalan yüksək likvid aktivlərdir.

Bu maddəyə aşağıdakılar daxildir:

- Kassada olan nağd vəsaitlər;
- Yolda olan pul köçürmələri;
- Bank hesablaşma hesabları və digər tələbli bank hesabları;
- Ödənilmə müddəti üç aydan artıq olmayan, yüksək likvidli investisiyalar (məsələn, depozitlər, qısamüddətli qiymətli kağızlar);
- Pul vəsaitlərinin ekvivalentləri.

Bank overdraftları isə ayrı uçot aparılmaqla qısamüddətli öhdəliklər tərkibində, "qısamüddətli faiz xərci yaradan öhdəliklər" adı altında göstərilir.

Bu göstərici Cəmiyyətin dərhal istifadə edilə bilən pul resurslarını əks etdirir və likvidlik vəziyyətinin qiymətləndirilməsində əsas rol oynayır.

| **Pul vəsaitləri və onların ekvivalentləri** | **8409755** |
|---|---|
| SHIBAGRO MMC | 565991 |
| A.M.O MMC | 7843764 |

**Bank hesabları**

**ABB**

AZ57IBAZ40070019444542471205 (AZN)

**Valyutaların yenidən hesablanması**

(a) Funksional valyuta və hesabat valyutası

Funksional valyuta maliyyə hesabatlarında maddələrin ölçülməsi üçün istifadə olunur. Bu müəssisənin yerli valyutası olan Azərbaycan Respublikası manatıdır (AZN).

(b) Əməliyyatlar və qalıqlar

Xarici valyuta ilə aparılan əməliyyatlar əməliyyatların aparılma tarixinə valyuta məzənnəsinə uyğun olaraq funksional valyutada əks etdirilir. Məzənnə fərqləri funksional valyutalardan fərqli valyutalarda aparılan əməliyyatlar və sövdələşmələr üzrə yaranır və hər bir valyutanın müəyyən sayda vahidlərinin müxtəlif məzənnə kursunda digər valyutaya çevrilməsi nəticəsində yaranan fərq kimi müəyyən edilir. Xarici valyutada aparılan əməliyyatlar üzrə yaranan mənfəət və zərərlər, həmçinin xarici valyutada ifadə edilən monetar aktivlərin və öhdəliklərin hesabat dövrünün sonuna məzənnə kursu üzrə yenidən hesablanmasından yaranan mənfəət və zərərlər, mənfəət və zərərlər haqqında hesabatda əks etdirilir. Bu cür əməliyyatlardan yaranan məzənnə fərqləri müvəqqəti olaraq pul vəsaitlərinin və netto-investisiyaların hedcinqləşdirilməsi (aktivlər və öhdəliklərin dəyərinin dəyişməsindən yaranan itkilərdən sığortalanmaq üçün həyata keçirilən əməliyyatlar) kapital hesabına aid edilmişdirsə, məzənnə fərqləri mənfəət və zərərlər haqqında hesabatda əks etdirilmir.

Monetar maddələr mövcud valyuta vahidləri və valyuta vahidlərinin sabit və ya müəyyən olunan sayında əldə edilən və ya ödənilən aktivlər və öhdəliklərdir. Monetar maddələrin əsas xüsusiyyəti sabit və ya müəyyən olunan sayda valyuta vahidlərinin əldə edilməsi hüquqdur. Monetar maddələr nağd, əldə edilən vəsaitləri, sudaları, ödənilməli olan mebelləri, uzunmüddətli borcları, təminatları, işçi müavinətləri öhdəliklərini və təxirə salınmış vergi aktivləri və öhdəliklərini daxil edir.Qeyri-monetar maddələrə səhmlər, ehtiyatlar, əvvəlcədən ödənilmiş gələcək dövrün xərclər, əmlak, torpaq, tikili və avadanlıqlar və qeyri-maddi aktivlər daxil edilir.

Xarici valyuta məzənnələri

Cəmiyyət konsolidasiya edilmiş maliyyə hesabatlarının tərtib olunması üçün aşağıdakı valyuta məzənnələrindən istifadə etmişdir:31 dekabr 2025 ci il tarixinə məzənnə:

1 USD – 1.70 AZN
1 EUR- 1.8811 AZN
1 RUB - 0.01888AZN

**Maliyyə öhdəlikləri-** Maliyyə öhdəlikləri ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri və ya digər maliyyə öhdəlikləri kimi təsnif edilir.Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri

Maliyyə öhdəlikləri alınıb-satılmaq üçün saxlanıldığı və ya ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan kimi müəyyən edildiyi halda ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan kimi təsnif edilir.

Ədalətli dəyərinin dəyişməsi mənfəət və ya zərərdə əks olunan maliyyə öhdəlikləri ədalətli dəyərdə əks olunur, yenidən qiymətləndirmə üzrə yaranan hər hansı gəlir və ya zərər isə mənfəət və ya zərərdə tanınır. Mənfəət və ya zərərdə tanınan xalis gəlir və ya zərərə maliyyə öhdəlikləri üzrə ödənilmiş faiz əlavə edilir və "digər gəlir və zərərlər" maddəsinə daxil edilir.

**Kapital və ehtiyatlar (Qeyd 12)-**

A.M.O Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 2600270961)

Cəmiyyətin nizamnamə kapitalı 1690 000 (Bir milyon altı yüz doxsan min manat) manat.Cəmiyyətin təsisçisi Babayev Vüqar Ağamir oğlu-3 pay Babayev Rəşad Ağamir oğlu 3 pay, Babayev Rəşad Bəxtiyar oğlu 4 pay . Cəmiyyət AR qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə məşğul ola bilər.

Qanuni təmsilçi Babayev Xətai İxtiyar oğlu

SHİBAGRO Məhdud Məsuliyyətli Cəmiyyəti (VÖEN 2602665901)

Cəmiyyətin nizamnamə kapitalı 690129 (Altı yüz doxsan min yüz iyirmi doqquz) manat.Cəmiyyətin təsisçisi A.M.O Məhdud Məsuliyyətli Cəmiyyəti 10 pay. Cəmiyyət AR qanunvericiliyi ilə qadağan olunmayan bütün fəaliyyət növləri ilə məşğul ola bilər.

Qanuni təmsilçi Babayev Məhəmməd Vüqar oğlu

**Malsatan və podratçılara qısamüddətli kreditor borcları (Qeyd 13)-** "Malsatan və podratçılara qısamüddətli kreditor borcları" – təchiz edilmiş mal-material qiymətlilərinə və göstərilmiş xidmətlərə görə hesabat tarixindən sonrakı 12 ay ərzində ödəniləcək məbləğləri əhatə edir. Bu borclar mühasibat uçotunda 531 nömrəli hesabda əks etdirilir.

Uçot prinsipi:

- Kredit: Təchiz edilmiş mallar, qəbul olunmuş işlər və xidmətlərin dəyəri qədər
- Debet: Malsatanlardan alınan ehtiyatlar və xidmətlər üzrə müvafiq aktiv və xərclər hesabları ilə müxabirləşmə

Bu borclar qısamüddətli öhdəliklər kimi təsnifləndirilir və şirkətin likvidlik vəziyyətini əhəmiyyətli dərəcədə əks etdirir.

Accounts Payable (AP) göstəricisi:

- Artarsa, bu, şirkətin daha çox alışları kreditlə etdiyini göstərir.
- Azalarsa, bu, əvvəlki öhdəliklərin daha tez ödənildiyini göstərir.

| **Qısamüddətli kreditor borcları** | **609,110.58** |
|---|---|
| SHIBAGRO MMC | 609,110.58 |
| A.M.O MMC | - |

**Təqaüd və digər mükafatlar üzrə öhdəliklər** - Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olaraq Şirkət işçilərin əmək haqlarından təqaüd ayırmaları tutur və onları dövlət sosial müdafiə fonduna köçürür. Bu cür ayırmaları hesablayarkən təqaüd sisteminin göstərişlərinə müvafiq olaraq işəgötürənlər tərəfindən cari ödənişlərin hesablanması zamanı işçi heyəti üzrə nəzərdə tutulan ümumi xərclərin müəyyən nisbəti götürülür. Belə xərclər müvafiq əmək haqlarının alındığı dövrlərə aid edilir. Təqaüdə çıxdıqda təqaüdlə bağlı bütün ödənişlər dövlət sosial müdafiə fondu tərəfindən yerinə yetirilir. Şirkət Azərbaycan Respublikasının Dövlət Sosial Müdafiə Fondu tərəfindən nəzərdə tutulmuş təqaüd proqramından başqa hər hansı bir digər təqaüd proqramlarında iştirak etmir. Bundan əlavə, Şirkətdə hesablanması tələb olunan pensiya müavinətləri və ya kompensasiya edilən digər mühüm müavinətlər mövcud deyildir.

**Mühüm mühasibat uçotu mühakimələri, təxminləri və proqnozları** -Təşkilat aktivlərin və öhdəliklərin növbəti maliyyə ilində hesabat məbləğlərinə təsir göstərən təxminlər və proqnozlar hazırlayır. Həmin təxminlər və proqnozlar müntəzəm olaraq qiymətləndirilir və rəhbərliyin təcrübəsinə və digər amillərə, o cümlədən rəhbərliyin fikrincə mövcud şəraitə uyğun olaraq əsaslandırılmış gələcək hadisələr üzrə təxminlərə əsaslanır.Vergi qanunvericiliyi: Azərbaycanınvergi,valyuta və gömrük qanunvericiliyinin şərhi ilə bağlı Təşkilat müəyyən mühakimələr irəli sürür.

**Risklərin idarə edilməsi**

**Maliyyə riski faktorları** Cəmiyyət daxilində risklərin idarə edilməsi funksiyası maliyyə riskləri (kredit riski, bazar riski, coğrafi risklər, valyuta riski, likvidlik riski və faiz dərəcəsi riskləri), əməliyyat və hüquqi risklər ilə əlaqədar həyata keçirir. Maliyyə risklərinin idarə edilməsi funksiyasının əsas məqsədi risk limitlərinin müəyyən edilməsi və bu limitlərə riayət edilməsidir. Əməliyyat və hüquqi risklərin idarə edilməsində məqsəd, bu risklərin azaldılması üçün nəzərdə tutulan daxili qayda və prosedurlara müvafiq qaydada riayət edilməsini təmin etməkdən ibarətdir.
**Bazar riski** Cəmiyyət bazardakı ümumi və spesifik dəyişikliklərə məruz qalan faiz, valyuta və pay alətləri üzrə açıq mövqelər ilə əlaqədar bazar risklərinə məruz qalır. Bazada daha əhəmiyyətli dəyişikliklərin baş verdiyi halda müəyyən edilmiş limitdən artıq zərərlərin yaranmasının qarşısı alınır. Qəbul edilmiş normalar ilə uzunmüddətli borcların bazar dəyəri onların daşınan dəyərlərilə dəyişə bilər.

**Faiz dərəcəsi riski** -Cəmiyyətin bir çox borcları təyin olunmuş marağı ifadə edir. Bu borclarla əlaqəli maraq xərcləri sığortalanmamışdır. Rəhbərlik inanır ki, maraq normalarının daimi olmamasından irəli gələn bazar qiymətlərinə dəyişikliklər əhəmiyyətli xarakter daşımır

**Hesabat tarixindən sonra baş vermiş hadisələr**

Hesabat tarixindən sonra konsolidasiya edilmiş maliyyə hesabatlarına əhəmiyyətli təsir edəcək hadisələr baş verməmişdir.